

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** ***Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 102 (23.744)

*8 iyun 2021-ci il, çərşənbə axşamı*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Naxçıvan Muxtar Respublikasında STEAM təhsil metodunun tətbiqi ilə bağlı tədbirlər haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin

## Sərəncamı

Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində yeni texnologiyaların, distant və elektron təhsilin tətbiqi yüksək ixtisaslı kadr hazırlığına geniş imkanlar açır. Elm, texnologiya, mühəndislik, incəsənət və riyaziyyatın inteqrasiya olunduğu STEAM təhsil metodu da əldə olunan biliklərin praktikada tətbiqi və intellektual potensialın əmək bazarının tələblərinə uyğunlaşdırılması baxımından mühüm əhəmiyyət daşıyır. Muxtar respublikanın təhsil müəssisələrində pilot layihə kimi STEAM təhsil metodundan istifadə bu sahədə sistemli tədbirlərin görülməsini zərurətə çevirib.

Mütərəqqi təhsil metodu kimi əhəmiyyətini nəzərə alaraq və Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyində STEAM Təlim-Tədris Mərkəzi yaradılsın.

2. Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyi ümumtəhsil məktəblərində STEAM kabinələrinin yaradılmasını və hər il “STEAM təhsil festivalı”nın keçirilməsini təmin etsin.

3. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti, Təhsil və Maliyyə nazirlikləri bu Sərəncamdan irəli gələn məsələləri həll etsinlər.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 7 iyun 2021-ci il*

***Bu gün dünyanın iqtisadi baxımdan inkişaf etmiş ölkələrinin hər biri dayanıqlı enerji təhlükəsizliyinə malikdir. Xüsusilə enerji istehsalında bərpa olunan mənbələrdən istifadə edilməsi bu gün dünya enerji sektorunda yeni seqment kimi hər gün öz əhəmiyyətini daha da artırmaqdadır. Təsadüfi deyil ki, ABŞ, Almaniya, Finlandiya, Norveç, Danimarka, Yaponiya və Çin kimi ölkələr bu sahədə qabaqcıl yer tuturlar. Ölkəmizin və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının təbii-coğrafi şəraiti və iqlim qurşaqları da bərpa olunan enerji mənbələrindən istifadənin mümkünlüyünü aktual məsələ kimi önə çıxarıb. Son illərdə bu sahədə ciddi addımlar atılıb, müxtəlif həcmli enerji istehsal edən obyektlər istifadəyə verilib.***

## Yeni Günəş Elektrik Stansiyası Naxçıvanda yaşıl texnologiyaların inkişafına böyük diqqətin nəticəsidir



Qeyd edək ki, keçən əsrin sonlarında muxtar respublikanın blokadaya salınması bu vacib sektorun inkişafına böyük əngəllər yaratsa da, ötən dövr ərzində muxtar respublikanın enerji təhlükəsizliyi ilə bağlı atılan mühüm addımlar hazırda bu sahənin hərtərəfli inkişafına zəmin yaradıb, nəticədə, muxtar respublikamız enerji idxalçısından enerji ixracatçısına çevrilib. Diyarımızın energetikasında mövcud təbii potensialdan lazımınca istifadə son bir neçə ildə bərpa olunan enerji mənbələri hesabına elektrik enerjisi istehsalına imkan verib, qısa müddətdə bu sahədə mühüm nəticələr əldə edilib. Son illər yeni su və günəş elektrik stansiyalarının tikilməsi enerji təhlükəsizliyinin təmin olunmasına mühüm töhfələr verib. Təsadüfi deyil ki, muxtar respublikada il ərzində istifadə olunan 430 milyon kilovat-saata yaxın elektrik enerjisinin artıq 50 faizi bərpa olunan enerji mənbələrinin payına düşür.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev də Naxçıvan Muxtar Respublikasına cari il may ayının 10-da etdiyi səfəri zamanı burada enerji təhlükəsizliyi ilə bağlı görülən işləri yüksək qiymətləndirib, bərpa olunan enerji mənbələrindən istifadə edilməsini regionun ekoloji vəziyyətinə töhfə kimi dəyərləndirib: ***“Vaxtilə Naxçıvanda işıq yox idi, enerji yox idi. Azərbaycandan gələn xətlər də Ermənistan tərəfindən kəsilmişdi. İndi isə Naxçıvan özünü elektrik enerjisi ilə tam təmin edir və bərpa olunan mənbədən istifadə edir. Bu, çox önəmlidir. Çünki bu, Naxçıvanın gözəl təbiətinə və ekoloji vəziyyətinə töhfə kimi qəbul edilməlidir”.***

Bəli, bu gün muxtar respublikada bərpa olunan enerji mənbələrindən istifadə diqqət mərkəzində saxlanılır. Xüsusilə su elektrik stansiyaları ilə yanaşı, Günəş Elektrik stansiyalarının da sayı artır. Naxçıvanda günəşli günlərin sayının çox olması bu tip stansiyaların gücündən istifadəni daha da aktuallaşdırıb. 2015-ci ildə Babək rayonunda 20 meqavat gücündə Naxçıvan Günəş Elektrik Stansiyasının tikilib istifadəyə verilməsi və 2017-ci ildə stansiyanın gücünün daha 2 meqavat artırılması, həmçinin 2019-cu ildə Kəngərli rayonunun Qabıllı kəndi ərazisində 2 meqavat, 2020-ci ildə isə 3 meqavat gücündə Günəş Elektrik stansiyalarının istifadəyə verilməsi Naxçıvanın etibarlı enerji təminatına səbəb olub. Bu sahədə görülən işlərin davamı kimi bir neçə gün bundan əvvəl – mayın 26-da Şərur rayonunun Zeyvə kəndində 5 meqavat gücündə yeni Günəş Elektrik Stansiyası istifadəyə verilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri bu münasibətlə keçirilən tədbirdə çıxış edərək demişdir: ***“Naxçıvanın muxtariyyət tarixi iki dövrə bölünür: müstəqillik illərinə qədərki və müstəqillik illərindən sonrakı dövr. Hər iki dövrdə muxtar respublikada sənayenin inkişaf etdirilməsi üçün elektrik enerjisinə böyük ehtiyac olub. Sovet İttifaqı ilə İran dövləti arasında bağlanmış müqaviləyə əsasən gücü 22 meqavat olan Araz Su Elektrik Stansiyası qurulub istifadəyə verilmişdir. 1990-cı illərin hadisələri muxtar respublikaya ağır zərbələr vurdu, Ermənistanın işğalçılıq siyasəti nəticəsində Naxçıvana gələn bütün kommunikasiyalar kəsildi. Naxçıvan elektriksiz qaldı. Ötən illərdə muxtar respublikada elektrik enerjisi ilə təminat sahəsində bir sıra işlər görülmüşdür. Əgər 70 il ərzində Araz çayı üzərində cəmi 1 müştərək elektrik stansiyası tikilmişdirsə, müstəqillik illərində Naxçıvanda 9 yeni elektrik stansiyası qurulmuşdur ki, bunun da 5-i su, 3-ü isə Günəş Elektrik Stansiyasıdır. Onların sırasına bu gün 5 meqavat gücündə yeni Şərur Günəş Elektrik Stansiyası da daxil olur. Bu da muxtar respublikada Günəş Elektrik stansiyalarının gücünü 32 meqavata, illik istehsalını isə 50 milyon kilovat-saata çatdıracaqdır”.***

Qeyd edək ki, Şərur Günəş Elektrik Stansiyası kənd təsərrüfatına yararsız 7,9 hektar ərazidə qurulub. Stansiyanın qurulmasında 15 min 180 müasir “şüşə-şüşə” tipli günəş panellərindən, hər birinin gücü 50 kilovat olan 100 invertordan, 5 ədəd 35/0,4 kilovoltluq transformatordan, 1 ədəd 35 kilovoltluq qapalı paylayıcı yarımstansiyadan istifadə olunub. Həmçinin burada alçaq və yüksəkgərginlikli, eləcə də rabitə, müşahidə və idarəetmə sistemi üçün optik kabel xətləri çəkilib, ərazi çəpərlənib, müasir siqnalizasiya və videomüşahidə qurğuları ilə təmin edilib.

Yeni istifadəyə verilmiş Günəş Elektrik Stansiyası Şərur rayonunun elektrik enerjisinə olan tələbatının ödənilməsində mühüm əhəmiyyətə malik olacaqdır. Rayonun elektrik enerjisinə olan illik tələbatı 75 milyon kilovat-saata yaxındır. Bunun 10 faizini illik istehsal gücü 7,5 milyon kilovat-saat olan yeni stansiya ödəyəcək.

Şərur Günəş Elektrik Stansiyasının istifadəyə verilməsi muxtar respublikamızda əlamətdar hadisələrdən biri kimi dəyərləndirilməlidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin ***“bərpa olunan enerjidən istifadə hər bir ölkənin inkişaf göstəricisidir”*** fikirləri bu stansiyanın istifadəyə verilməsində bir daha öz təsdiqini tapır. Bununla yanaşı, yeni Günəş Elektrik Stansiyasının fəaliyyətə başlaması digər maraqlı tərəfləri də diqqət çəkir. Belə ki, yeni stansiya muxtar respublikanın energetika sisteminin yenilənməsində müasir dövrün çağırışlarına uyğunlaşmanın diqqət mərkəzində saxlanıldığını göstərir. Eyni zamanda təmiz enerji istehsal etdiyinə görə ekoloji mühitə, həmçinin əhalinin dayanıqlı və keyfiyyətli elektrik enerjisi ilə təminatına öz töhfəsini verir.

Məlum olduğu kimi, muxtar respublikada indiyədək istifadəyə verilən Günəş Elektrik stansiyalarının qurulması İsveçrənin “Pure Energy Development” SARL şirkətinə həvalə olunub. Şərur Günəş Elektrik Stansiyasının açılış mərasimində şirkətin icraçı direktoru Mişel Kaleraminin: “… Mən çox ölkələrdə işləmişəm. Lakin Naxçıvanda işləmək çox güvənli və asandır. Şirkətimizi yenidən seçdiyiniz üçün minnətdarlıq edirik” sözləri həm də bu dövrdə Naxçıvanın etibarlı tərəfdaş kimi tanınmasında böyük rol oynayıb.

Bəli, energetika sektoru artıq Naxçıvan Muxtar Respublikasında iqtisadiyyatın inkişaf etmiş sahəsinə çevrilib. Bu sektor təkcə yaşıl texnologiyaların inkişafına deyil, həm də büdcəyə gəlir gətirən, əhali məşğulluğunu təmin edən mühüm strateji təsərrüfat subyektidir.

✍ **Səbuhi HƏSƏNOV**

## İctimai təhlükəsizliyin qorunması və vətəndaşlara göstərilən xidmətlərin səviyyəsi diqqətdə saxlanılır

Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyi may ayında da fəaliyyətini qarşıya qoyulan vəzifələrin həyata keçirilməsi istiqamətində quraraq bütün xidmət sahələri üzrə müsbət nəticələrin əldə olunmasına səy göstərib. Bu dövrdə vətəndaşlar arasında hüquqi maarifləndirmə tədbirləri diqqətdə saxlanılıb, profilaktikaya geniş yer verilib. May ayında aparılan maarifləndirmə işləri nəticəsində əhalidən 2 avtomat, 1 qaz tapançası, 11 ov, 1 tir silahı, 1 süngü bıçağı, 32 döyüş sursatı götürülüb.

Ay ərzində yetkinlik yaşına çatmayanlarla profilaktik işin təşkili diqqətdə saxlanılıb, ümumtəhsil məktəblərində bir sıra məqsədyönlü işlər görülərək şagirdlərlə 54 görüş keçirilib. Görüşlər zamanı yetkinlik yaşına çatmayanlarla idmanın əhəmiyyəti, insan sağlamlığına müsbət təsiri, həmçinin sağlam həyat tərzi və yol hərəkəti təhlükəsizliyi qaydaları barədə maarifləndirici söhbətlər aparılıb.

May ayında polis sahə inspektorları da üzərlərinə düşən vəzifələrin yerinə yetirilməsinə məsuliyyətlə yanaşaraq mülki hüquqi öhdəliklərin icrasından yayınan 15 nəfər barəsində axtarış işi açıb. Axtarışda olan şəxslərin hamısı tutularaq axtarışa göstəricisi 100 faiz təşkil edib.

Nazirliyin Dövlət Yol Polisi İdarəsi tərəfindən vətəndaşlara göstərilən xidmətlər də davam etdirilib. Ay ərzində 495 sürücülük vəsiqəsi, 326 dövlət qeydiyyat nişanı, 742 qeydiyyat şəhadətnaməsi verilib, 58 nəqliyyat vasitəsinin ilkin, 631 nəqliyyat vasitəsinin təkrar qeydiyyatı aparılıb. Həmçinin ay ərzində ümumvətəndaş pasportu və şəxsiyyət vəsiqələrinin vaxtlı-vaxtında verilməsi də diqqətdə saxlanılıb, 568 nəfər ümumvətəndaş pasportu, 3899 vətəndaş şəxsiyyət vəsiqəsi ilə təmin olunub. Hesabat ayında nazirliyin “Səyyar xidmət”i tərəfindən vətəndaşlara göstərilən xidmət də davam etdirilib. Belə ki, 1120 vətəndaşa şəxsiyyət, 90 vətəndaşa sürücülük vəsiqəsi, 13 nəfərə məhkumluq haqqında arayış verilib.

Daxili İşlər Nazirliyi bu kimi tədbirləri qarşıdakı aylarda da davam etdirəcək, asayişin və ictimai təhlükəsizliyin qorunması, vətəndaşlara göstərilən xidmətlərin səviyyəsinin yüksəldilməsi, baş verə biləcək hüquqpozmaların qarşısının vaxtında alınmasını təmin edəcək.

***Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin mətbuat xidməti***

## Test imtahanlarına start verilib

*Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzi tərəfindən dövlət orqanlarında vakant dövlət qulluğu vəzifələrinin tutulması üçün 11 mart 2021-ci il tarixdə elan olunmuş müsabiqənin test mərhələsinə start verilib.*



Müsabiqəyə çıxarılmış 59 vakant vəzifənin tutulması üçün 730 müraciət qeydə alınıb. Müraciət edənlərin daha çox sənəd təqdim etdiyi dövlət orqanları sırasında Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi (148 nəfər), Təhsil Nazirliyi (142 nəfər), Dövlət Sosial Müdafiə Fondu (140 nəfər) öndə dayanır. Ən sıx müsabiqə vəziyyətinin yarandığı dövlət orqanı isə Gənclər və İdman Nazirliyidir. Nazirliyin təqdim etdiyi bir vakant vəzifənin tutulması üçün 100 namizəd qeydiyyatdan keçib.

İmtahan başlanmazdan əvvəl namizədlərə slayd vasitəsilə imtahan və test proqramından istifadə qaydaları haqqında məlumat verilir. İmtahanda namizədlərə qanunvericilik üzrə 40, Azərbaycan dili üzrə 15, informasiya texnologiyaları üzrə 15, məntiqi təfəkkürün yoxlanılması üzrə 30 sual olmaqla, cəmi 100 sual təqdim olunur, sualları cavablandırmaq üçün namizədlərə 2 saat 30 dəqiqə vaxt verilir.

7-22 iyun tarixlərdə keçiriləcək test imtahanında obyektivliyin və şəffaflığın tam təmin edilməsi məqsədilə imtahanın videoçəkilişi aparılır. Test imtahanı bitdikdən dərhal sonra namizədlərə test imtahanının nəticəsinə dair arayış təqdim edilir. Test imtahanlarının nəticələri Dövlət İmtahan Mərkəzinin rəsmi internet portalında *(www.dim.nmr.az)* yerləşdirilir. Test imtahanlarında müvafiq keçid balını toplamış namizədlər müsahibə mərhələsində iştirak etmək hüququ qazanacaqdır.

***Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzinin mətbuat xidməti***

# Ölkəmizin quru sərhədləri ilə yanaşı, hava məkanı da etibarlı müdafiə olunur



***Vətən müharibəsində Böyük Qələbənin təmin edilməsində Hərbi Hava Qüvvələrinin necə böyük əhəmiyyət daşıdığının bir daha şahidi olduq. Qəhrəman hərbçilərimiz və müasir aviasiya vasitələri sayəsində, sözün həqiqi mənasında, düşmənin başına od ələndi və nəticədə, torpaqlarımız işğaldan azad edildi. Azərbaycan Silahlı Qüvvələrinin tərkib hissəsi kimi böyük təşkilatlanma yolu keçən və muxtar respublikanın müdafiəsində uğurla dayanan Əlahiddə Ümumqoşun Ordunun tabeliyindəki aviasiya bölmələrinin bazası da müasir hava hücumu vasitələri və digər hava döyüş texnikaları ilə komplektləşdirilir.***

Bu gün ölkəmizin quru sərhədləri ilə yanaşı, hava məkanı da etibarlı müdafiə olunur. Bunun üçün ordumuzun aviasiya bölmələrinin maddi-texniki bazası daim gücləndirilir. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev 18 illik siyasi rəhbərliyi dövründə Naxçıvan Muxtar Respublikasının təhlükəsizliyi məsələsini də daim diqqət mərkəzində saxlayıb. Ölkə başçısının mayın 10-da Naxçıvana səfəri çərçivəsində Əlahiddə Ümumqoşun Ordunun hərbi aerodrom kompleksinin istifadəyə verilməsi görülən işlərin davamıdır. Kompleksdə start komanda, təhlükəsizlik baxış, texniki nəzarət məntəqələri, aviasiya texnikalarının saxlanması üçün anqarlar yaradılıb. Xidmətin düzgün təşkili üçün dördmərtəbəli qərargah binasında siniflər, istirahət, iş və digər xidməti otaqlar fəaliyyət göstərir. Burada uçuşdan əvvəl tibbi yoxlanış və uçuşa hazırlıq, eləcə də şəxsi heyətin qidalanması üçün hərtərəfli şərait yaradılıb.

Zabit Əli Zamanovla söhbət zamanı dedi ki, Əlahiddə Ümumqoşun Ordunun təyyarəçisi kimi Azərbaycanın hava məkanının qorunmasına xidmət edirik. Hərbi aerodrom kompleksində yaradılan şərait bizim nəzəri biliklərimizin və uçuş bacarıqlarımızın artırılmasında yaradılmış müasir dərs otaqları, uçuşların yerinə yetirilməsi üçün istifadəmizə verilmiş aerodrom və uçan aparatlar böyük əhəmiyyət daşıyır. Hərbi aerodromda 24 saatlıq döyüş növbətçiliyi apararaq ölkəmizin hava məkanını fasiləsiz müdafiə edirik və xidmətimizlə qürur duyuruq.

Hərbi aviasiya vasitələrinə vaxtında və düzgün texniki nəzarət verilən tapşırıqların uğurla yerinə yetirilməsi baxımından başlıca şərtlərdən biridir.





Hərbi aerodrom kompleksində yaradılan texniki nəzarət məntəqələrində aviasiya vasitələrinə mütəmadi olaraq texniki baxış keçirilir. Texnikalarda hər hansı nasazlıq baş verərsə, tez bir zamanda aradan qaldırılaraq hər zaman uçuşa hazır vəziyyətə gətirilir. Əlahiddə Ümumqoşun Ordunun zabiti Hikmət Hüseynov bu barədə məlumat verərək qeyd etdi ki, biz mühəndis texniki heyəti olaraq aviasiya texnikasının texniki istismarını həyata keçiririk. Bu vəzifənin yerinə yetirilməsində əsas məqsəd təyyarələr və helikopterlərin daim döyüşə və uçuşa hazır vəziyyətdə saxlanılmasından ibarətdir. Yeni yaradılan kompleksdə hər bir şərait vardır ki, biz işlərimizi daha yüksək keyfiyyətlə və vaxtında yerinə yetirək.





Əlahiddə Ümumqoşun Ordunun aviasiya bölmələrinin şəxsi heyətinin peşəkarlıq səviyyəsinin, bilik və bacarığının daha da təkmilləşdirilməsi, manevr qabiliyyətinin artırılması məqsədilə təlim-məşq uçuşları keçirilir. Bunun üçün aerodromun Uçuşları İdarəetmə Mərkəzi müasir texnika və avadanlıqlarla təmin olunub və yeni texniki avadanlıqlarla təchiz edilməsi üzrə tədbirlər davam etdirilir. Uçuş heyətinin həkim müayinəsindən keçirilməsi üçün yaradılan şərait isə heyətin uçuş təlimatının tələblərinə uyğun yoxlanılmasına imkan verir. Zabit Ələkbər Camalov bildirdi ki, həkim nəzarətindən keçdikdən sonra uçuş heyəti lazımi geyim və ləvazimatları götürür, aviasiya texnikasının qəbulu və trenajları keçirilir. Uçuşlar zamanı hərbi hissə komandiri tərəfindən tapşırıqlar verilir, Uçuşları İdarəetmə Mərkəzindən uçuşlara nəzarət edilir. Uçuşlar bitdikdən sonra aviasiya texnikası xüsusi anqarlarda yerləşdirilir və konfrans zalında uçuşların təhlili aparılır. Əgər nöqsanlar və ya başqa hadisələr baş vermişdirsə, təlim-konfrans zalında buna aydınlıq gətirilir. Uçuşlar keçirilməyən günlərdə şəxsi heyət xüsusi məşğələlərlə uçuşa hazırlıq dərslərində iştirak edir və idman meydançasında fiziki hazırlıqlarını gücləndirir. Yaradılan şəraitə görə ölkə başçısı, Ali Baş Komandan cənab İlham Əliyevə minnətdarlığımızı bildiririk.



Bu gün əminliklə deyə bilərik ki, Əlahiddə Ümumqoşun Ordu muxtar diyarın müdafiəsində uğurla dayanır. Təbii ki, müdafiə qüdrətinin əsasında möhkəm və müasir hərbi-texniki bazanın olması əsas şərtdir. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandanımız cənab İlham Əliyevin dediyi kimi: ***"Bu gün Naxçıvan ordusunda olan hərbi texnika, deyə bilərəm ki, bəlkə də, bəzi qabaqcıl ölkələrdə olan texnikadan üstündür. Çünki Naxçıvana ən müasir, ən son texnologiyaya əsaslanmış texnika gətirilir. Deyə bilərəm ki, bütövlükdə, Azərbaycan Ordusuna xaricdən gətirilmiş texnikaların böyük əksəriyyətinin nümunələri Naxçıvan Muxtar Respublikasında mövcuddur. Əlbəttə ki, Naxçıvan Ümumqoşun Əlahiddə Ordunun döyüş qabiliyyəti də yerindədir və uğurlu Günnüt əməliyyatı – üç il bundan əvvəl keçirilmiş əməliyyat bunun bariz nümunəsidir."***

Bəli, Ali Baş Komandan cənab İlham Əliyevin dediyi kimi, Əlahiddə Ümumqoşun Ordu ən müasir silah arsenalına malikdir və qarşıya qoyulmuş bütün tapşırıqları uğurla yerinə yetirmək iqtidarındadır. Elə Əlahiddə Ümumqoşun Ordunun hərbi aerodrom kompleksində yaradılan şərait də xidmətin nümunəvi təşkilinə və aviasiya bölmələri tərəfindən ölkəmizin hava məkanının 24 saat etibarlı müdafiə olunmasına imkan verir. Hərbi aerodrom kompleksinin imkanları haqqında, eləcə də aparılan quruculuq və təkmilləşdirmə işləri barədə növbəti yazılarda daha geniş məlumat verəcəyik.

**Kənan CƏLİLOV**

# Vətənə və milli dəyərlərə bağlılıq vətənpərvərlik nümunəsidir

Milli-mənəvi dəyərlər və Azərbaycançılıq – bu sözlər hər bir Azərbaycan vətəndaşı üçün doğma, əziz və müqəddəsdir. Bu həm də milli ruhun, milli şüurun simvolu olaraq tarixi yaddaşın fundamental prinsiplər əsasında formalaşması deməkdir. Xalqımız, millətimiz keçmişin bütün buxovlarından azad olduqdan sonra əlindən zorla alınmış milli-mənəvi dəyərlərin, milli özünüdərkin formalaşmasına yeni zəmin yarandı. Müasir tariximizin səhifələrində yer almış milli oyanış dövründə millətin həmin dəyərlər uğrunda canından belə, keçməyə hazır olması xalqımızın bu dəyərlərə sadiqliyinin nümunəsidir. Yeni qurulan cəmiyyətdə əsaslılıq təşkil edən bu amilin qorunub-saxlanılması, onun daha da zənginləşdirilməsi, maarifləndirmə baxımından onu dərk etməyənlərə aşılanması mühüm vəzifələrdən biri kimi, ozamankı rəhbərliyin ümdə borcu idi. Fəqət, yenicə müstəqillik qazanmış Azərbaycanda cərəyan edən hadisələr, ölkədə hökm sürən böhranlı vəziyyət və digər acınacaqlı faktorlar xalqımızı yenidən vassallığa doğru sürükləməklə yanaşı, sözügedən dəyərlərin növbəti dəfə itirilməsinə şərait yaradırdı. Məhz bu şəraitdə xalqın onu anlaya biləcək, öz dilini, dinini, milli mədəniyyətini, adət-ənənələrini inkişaf etdirəcək, özünə qayıtmasına imkan yaradacaq Öndərə ehtiyacı var idi.

Xalqın tələbi ilə 1993-cü il iyunun 15-də hakimiyyətə qayıdan ulu öndər Heydər Əliyev qısa müddətdə bütün negativ hallara son qoymaqla yanaşı, qeyd olunan bu amilləri prioritet vəzifə kimi həyata keçirməyə başladı. ***"Gərək hər bir insan və xüsusən gənc nəsil müstəqilliyin nə qədər müqəddəs olduğunu bütün varlığı ilə dərk etsin, onu qorumaq və möhkəmləndirmək üçün hər cür qurban verməyə hazır olsun. Bunun üçün isə o, ilk növbədə, yüksək mənəviyyata malik olmalıdır, xalqımızın milli-mənəvi dəyərləri onun şəxsiyyətinin mahiyyətini təşkil etməlidir. O, Azərbaycançılığın, mənsub olduğu Azərbaycan xalqının mədəniyyətinin, ədəbiyyatının, incəsənətinin, elminin nə olduğunu dərindən bilməlidir"*** kimi əvəzedilməz tövsiyəsini verən ulu öndər Heydər Əliyev dühası milli mədəni irsimizin, tariximizin ideoloji buxovlardan və qadağalardan xilas olmasına stimul verdi.



Dahi şəxsiyyət Heydər Əliyev zəngin tariximizi öyrənməkdə, milli-mənəvi dəyərlərimizə yiyələnməkdə, Azərbaycançılığı hər zaman yüksək mövqedə tutmaqda olan gənc nəslin milli ruhda tərbiyə olunmasını əsas vəzifələrdən biri kimi hesab edib. O bu barədə bəhs edərkən deyirdi: ***"Gənclərimiz milli ruhda tərbiyə olunmalıdır, bizim milli-mənəvi dəyərlərimizin əsasında tərbiyələnməlidir. Gənclərimiz bizim tariximizi yaxşı bilməlidir, milli dəyərlərimizi yaxşı bilməlidir. Milli dəyərlərimizi, milli ənənələrimizi yaxşı bilməyən, tariximizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz".***

Görkəmli dövlət xadimi Heydər Əliyevin bir şəxsiyyət, dövlət xadimi və lider kimi siyasi fəaliyyətinin əsasını millilik, milli köklərə bağlılıq təşkil edib. Azərbaycançılığın inkişafı və qorunması, əxlaq normalarımızın, dinimizin, dilimizin, tariximizin, mədəniyyətimizin, mənəviyyatımızın yüksəldilməsi, gənclərin milli ruhda tərbiyə edilməsi onun liderlik missiyasının başlıca cəhətləridir. Milli mənəviyyatı və milli qüruru yüksəldən, milli şüuru və milli ruhu zənginləşdirən özünəqayıdış prosesi dahi şəxsiyyət Heydər Əliyevin çoxşaxəli fəaliyyəti, diqqəti və təşəbbüskarlığı sayəsində reallıq amilinə çevrilib.

Bu gün Azərbaycan dünyaya sürətli inteqrasiya yolundadır. Fərəhli haldır ki, bu inteqrasiya xalqımızın öz tarixi keçmişinə bağlılığı kontekstində baş verir. Sevindirici haldır ki, ulu öndərimizin bu sahədə müəyyənləşdirmiş olduğu ənənələr müqəddəs bir miras kimi yenə də yaşadılır, qorunur. Azərbaycan Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi strateji inkişaf kursunun uğurları sayəsində Azərbaycan bu gün çağdaş tarixinin intibah mərhələsinə qədəm qoymuş, müstəqil dövlətimiz iqtisadi inkişaf potensialına görə lider ölkəyə çevrilmiş, beynəlxalq siyasi münasibətlərdəki mövqeyi möhkəmlənmişdir.

44 günlük Vətən müharibəsi və 30 ilə yaxın dövr ərzində dırnağına kimi silahlanmış, çoxmərtəbəli yeraltı istehkamlar qurmuş və yalnız işğalçı ruhunda böyümüş düşmən üzərində qələbə bütün dünyaya bizim milli həmrəyliyimizi nümayiş etdirdi. Bu tarixi qələbənin mənbəyi xalqımızın həmrəyliyi, cənab Ali Baş Komandanın ətrafında sıx birləşən vətəndaşlarımızın inamı və Azərbaycan Ordusunun məğlubedilməzliyi, qətiyyəti oldu. Tarixi Qələbə milli kimliyimizi, birliyimizi, gücümüzü və əzmimizi bütün dünyaya göstərdi.

Muxtar respublikamızda da milli dəyərlərimizin, milli tariximizin, ədəbiyyatımızın, mədəniyyətimizin və incəsənətimizin, adət-ənənələrimizin qorunması, zənginləşdirilməsi həmişə diqqət mərkəzində olmuşdur. Milli dəyərlərə hörmət və ehtiramla yanaşma, bu dəyərlərin elmi baxımdan öyrənilməsi, təbliğ edilməsi istiqamətində aparılan məqsədyönlü siyasət böyük nailiyyətlərin qazanılmasına şərait yaratmışdır.

Milli dəyərlərin yaşadılması muxtar respublikanın ali təhsil müəssisələrində də diqqət mərkəzində saxlanılmış, çalışdığım Naxçıvan Dövlət Universitetində müxtəlif mövzularda elmi konfranslar, müəllim və tələbə rəssamların çəkdikləri rəsm əsərlərindən ibarət sərgilər təşkil edilmişdir. Həmçinin universitetdə "Heydər Əliyev Universiteti"nin bir neçə məşğələsi "Heydər Əliyev və milli dəyərlər" mövzusuna həsr olunmuş, bu mövzuda dəyirmi masaların keçirilməsi də milli dəyərlərin qorunub yaşadılması istiqamətində həyata keçirilən tədbirlərin davamı kimi yadda qalmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***"Milli dəyərlərimizin qorunması və gələcək nəsillərə çatdırılması hər birimizin mühüm vəzifəsi olmalıdır. Biz öz tarixi dəyərlərimizə sahib çıxmasaq, ona başqaları sahib çıxacaqdır. Xalqımızın gələcəyini düşünürüksə, bu gələcəyi möhkəm təməllər – milli dəyərlər üzərində qurmalıyıq. Tarix sübut etmişdir ki, uğurlu gələcəyin yolu milli dəyərlərin yaşadılmasından, gənclərin təhsilindən və vətənpərvər tərbiyədən keçir".***

Bu gün muxtar respublikamızda milli dəyərlərin qorunması istiqamətində həyata keçirilən tədbirlər xalqımızın bu dəyərlərə sadiqliyinin, ulu öndərin müqəddəs irsinə dərin hörmətin təzahürü, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin azadlıq və müstəqillik ideallarına, möhkəm milli bünövrəyə malik zəngin mənəvi irsinin təbliği işinə də böyük töhfədir.

**Nuridə QƏNBƏROVA**
***Naxçıvan Dövlət Universitetinin müəllimi***



# Qapıcığın çırağı – Parağaçay qəsəbəsi

## *Dağlar arxasında üç dost...*

### *Zinət*

Vətənin hər qarışını gəzməkdən yorularmı insan? Yorulmadan, usanmadan Azərbaycanın döyünən ürəyi Naxçıvanın hər guşəsini qələmin gücü ilə vəsf etməkdir məqsədimiz. Səhər saat 5... Bir neçə gündür, hazırlaşdığımız səfərin həyəcanını yaşayırıq. Bir tərəfdən uzaq yol, digər tərəfdən o yol boyunca görəcəyimiz mənzərələr və alacağımız təəssüratlar barədə düşünürdük. Çünki bu mövsümdə hər yaşayış məntəqəsi, hər yol kənarı başqa bir rəngə, al-əlvanlığa bürünmüş olur. Və Naxçıvanın iqliminə bələd olanlar bilirlər ki, bu mənzərəni hər mövsümdə görmək mümkün deyil. Yayın qovurucu istisi yaxınlaşdıqca çöllər öz qızılı libasını geyinib yenidən yağış mövsümünü gözləməyə başlayır. Ona görə də təbiətin zümrüd donlu, rəngarəng naxışlı halını görmək üçün yaz fəslində səfərlər etmək daha məqsədəuyğundur...

Deyim ki, budəfəki səfərimiz fərqli bir məkana idi. Buranı seçməyimiz də təsadüfi deyildi. Çox insanın görmədiyi, bilmədiyi, haqqında eşitmədiyi və yolunu salmadığı, bəlkə də, sala bilmədiyi məkandır. Bura Qapıcığın zirvəsi ilə üz-üzə, Zəngəzur silsiləsinin ətəyində yerləşən, vaxtilə yaxınlığındakı dağ mədənləri hesabına qaynar həyatı olmuş, indi yaşıllığın və sükutun səsi ilə (bəli, sükutun səsi!) harmoniyaya qovuşmuş, Naxçıvan təbiətinin misilsiz mənzərələrini özündə ehtiva edən Ordubad rayonunun kiçik bir dağ-mədən qəsəbəsi Parağaçaydır!

Asfalt örtük döşənmiş yolları hər iki tərəfdən iri ağacların yamyaşıl çətirləri ilə sıx hasarlanmış kənd yollarını ötüb keçdikcə zəhmətkeş insanların yaratdığı xoş mənzərələr adamın gözünü oxşayır, ruhuna sərinlik və dinclik bəxş edir. Dağlara sarı qalxdıqca gözlərimiz qarşısında başqa bir mənzərə açılır. Göz işlədikcə uzanıb gedən mavi üfüq və zümrüd rəngində dağların qucaqlaşması ecazkar təbiət lövhələri yaradır. Vadi boyunca uzanan kəndlər sıx ağac çətirləri arasında itib görünməz olur. Hündürlükdən baxanda vadi boyunca axan yaşıl çaya bənzəyən bu yerlərdə arabir görünən evlərin rəngarəng dam örtükləri sıx çəmənlikdə açmış çiçəkləri xatırladır. Gah yağış yağır, gah da külək əsir. Dağların ətəklərinə qədər enən buludlar harasa tələsirmiş kimi sürətlə hərəkət edir. Yolboyu qarşılaşdığımız gözəl təbiət mənzərələrini telefonumuzun yaddaşına köçürürük.

Bir tərəfi uca dağlar, bir tərəfi isə dərin dərə ilə müşayiət olunan yol üfüqdə yeni bir mənzərəni gözlərimiz qarşısında açır. Sanki rəssam fırçasından çıxmış tablonun növbəti elementi hələ də qarla örtülü olan Qapıcığın zirvələrindən biridir. Naxçıvan şəhərində 30 dərəcədən artıq temperatura qarşı burada 17-20 dərəcə temperaturla qarşılaşmaq, çiçəkdən yeni çıxmış və çəyirdəkləri hələ də bərkiməmiş alça və ərik meyvələrini görmək yurdumuzun rəngarəng iqliminin bizə bəxş etdiyi növbəti hədiyyədir.

Bizi qarşılayan qarlı zirvə artıq mənzilbaşına çatdığımızı, yaxınlaşdığımızı göstərir. Qırmızı kirəmitlə örtülmüş, xüsusi görünüşü ilə seçilən evlər mənzilbaşını – Parağaçay qəsəbəsinin maraqlı mənzərəsini gözlərimiz önündə açır. Ötən əsrin 50-ci illərində qəsəbə yaxınlığında mədənlərin fəaliyyətə başlaması buranın sürətlə məskunlaşmasına təkan verib. Bu balaca, eyni dizaynla tikilmiş evlər də ötən əsrin yadigarlarıdır.

### *Zəhmət*

Hər kəsdə maraqlı təəssürat yaradan bu evlərin birində yaşayan 68 yaşlı Sərxan Hüseynov avtomobildən düşdüyümüzü görüb bizə yaxınlaşır, "xoş gəlmisiniz", – deyir. Öyrənirik ki, Sərxan baba 1969-cu ildə Parağaçay molibden mədənində işləmək üçün buraya gəlib. Hərbi xidmətini başa vurduqdan sonra həyatını həmişəlik bu məkanla bağlayıb. O deyir ki, havasına, suyuna öyrəşdiyi üçün bu torpaqdan ayrıla bilmir. Əlavə edir ki, buraların suyunun, havasının əvəzi yoxdur. Bura cənnətdir, onu saxlayan buradır.

Öz kiçik evində bizi böyük qonaqpərvərliklə qarşılayan Sərxan babanın səliqə-sahmanı ilk baxışdan diqqətimizi çəkir. Evdəki təmizlik, hər şeyin yerli-yerində olmasına görə onun burada tək yaşadığına, bu evə qadın əlinin dəymədiyinə inanmağımız gəlmir. Ömür-gün yoldaşı Süsənbər xanımı vaxtsız itirsə də, onunla birlikdə 6 övlad boya-başa çatdırdığı bu evin hər küncündə mərhum ömür-gün yoldaşı ilə bağlı xatirələrini yaşadır və bizim üçün yenidən o günlərə qayıdır...

Ağ-qara şəkillərlə keçmişə səyahət etdikcə Sərxan baba deyir ki, yaş ötdükcə insan keçmişə, yaxşı yoldaşlara yenidən qayıdır, hər şeyin dəyərini bir daha anlayır: keçmişdəki dəyərlər bizə hər zaman xoş təəssüratlar bəxş edir və gələcəyə olan ümidimizi, insanlara olan ehtiramımızı artırır. Keçmişlə yaşamalıyıq, onu xatırlamalıyıq ki, dəyərlərimizi gələcək nəslə də ötürə bilək...

Ən çox da nəvələrinin həsrətini çəkir, onlar üçün darıxır Sərxan baba. Nəvələrinin qoyduğu əşyalara, oyuncaqlara toxunmadan yerində saxlayır. Bizə böyük həvəslə onların gələcəyi gündən, onlarla oynadığı oyunlardan, nəvələrinin onu nə qədər sevdiyindən danışır. Bizim onu diqqətlə dinlədiyimizi görüb daha da şövqlə danışır xatirələrindən.

Sərxan baba öz kiçik təsərrüfatında az sayda iri və xırdabuynuzlu



heyvan saxlayır. Bu torpaqların yaxşı kartof məhsulu yetişdirmə imkanından da faydalanır. Kartofdan başqa, kiçik təsərrüfatında digər tərəvəz məhsulları da yetişdirir. İlin son pomidor məhsulunun Parağaçayda yetişdiyini isə bizə böyük fəxrlə bildirir. Bu ərazidə bitən otların, kol və ağacların al-əlvan gül-çiçəkləri bal arılarının keyfiyyətli məhsul istehsal etməsinə imkan verdiyini deyir. O da bu imkandan yararlanaraq bir neçə arı ailəsi saxladığını dilə gətirir.

Zəngəzur silsiləsinin ətəyində yerləşən bu kiçik qəsəbənin təpələrinin yamaclarında inşa olunmuş evlərdə Sərxan babadan başqa yaşayan ailələr də var. Elə həyətyanı sahələrini əkin üçün hazırlayan kənd sakinləri Qədir və Bəxtiyar bu qəsəbədə yaşayanlardandır. Bəxtiyar deyir ki, ərazinin zəngin təbiəti, təmiz havası, qidaları bizi bu yerlərə bağlayır.

Yaşadıqları yeri bizə fəxrlə öyən insanların torpağa bağlılığı, sevgisi insanda qürur hissi yaradır. İnsanı başa düşmək həyatı başa düşməkdir. Onların sevgisi doğma torpağa, ana təbiətə – dolayısıyla keçmişlərinə və gələcəklərinədir.

Kiçik qəsəbənin insanı valeh edən mənzərəsini doya-doya seyr edib bitirməmiş Sərxan baba samovarı qaynadıb bizi qocaman cəviz ağacının altında hazırladığı çay süfrəsinə dəvət edir. İnsanı üşüdən dağ mehinin müşayiətilə isti samovar çayımızı Sərxan babanın qışdan saxladığı, Ordubad mətbəxinin ən ləziz təamlarından olan cəviz mürəbbəsi ilə içirik. Ev sahibinin şirin söhbətləri ilə yenidən bu məkanın seyrinə dalırıq. Bu yerlərin insanlarına xas qonaqpərvərliklə bizi qonaq saxlayan və gecəni də burada qalmağa dəvət edən babanın təklifini yerə salmırıq, buraları doyunca gəzək deyə, bir gecə qalmağı qərarlaşdırırıq. Sərxan baba elə həmin gün bizi dağları gəzməyə aparır. Deyir ki, bu dağların elə yeri olmayıb ki, ayağım dəyməsin. Heç eşitmədiyimiz, görmədiyimiz yerlərin gözəlliyi bizi valeh etməkdədir. Dağların yamacı boyunca ilan kimi qıvrılan yollarla irəlilədikcə, dəyişən landşaftın göz oxşadıqca uzanan yeni mənzərə tabloları yaratmağı diqqətimizdən qaçmır.

Dağların ətəyində qoyun sürüləri görünür. Doğrudan da, şəhərin səs-küyündən uzaqlaşaraq belə sakit bir yerə düşdükdə insan daxilən nə qədər də rahatlaşır. Bu yerlərdə gül gülü, çiçək çiçəyi çağırır. Çiçəkləmiş həmərsin və yemişan kollarının ətri, çəhrayı çiçəkləri ilə yamaclara xalı kimi döşənmiş kəklikotunun məstedici rayihəsi, bir az aralıda qaçışan kəkliklərin qaqqıltısı bir anlıq da olsa, xəyallar aləminin sakininə çevirir insanı. Hesabı bilinməyən neçə xəstəliyin dərmanı olan bu bitkilər təbiətin yurdumuza bəxş etdiyi sirli xəzinədir. Biz şəhərə əliboş qayıtmayacaqdıq. Çünki bolluca kəklikotu yığmışıq. Bir də yemişan çiçəkləri. Kəklikotunun xoş ətri əllərimizə hopub. Bu yerdə Aşıq Ələsgərin gözəl misraları yada düşür:

*Kəkotu, qırxbuğum, qaymaq çiçəyi,*
*Bənövşə, qantəpər, qızlar örpəyi,*
*Qoyun mələşməsi, çoban tütəyi*
*Çəkir uzaqlara xəyalı, yaylaq.*

Kiçik Qafqazın ətəklərindən qayıdanda hava yavaş-yavaş qaralmağa başlayır. Sərxan baba tələsik atını yəhərləyərək mal-qarasının dalınca yollanır. Sonra kiçik bir süfrə başına toplaşıb Sərxan babanın gah Bəxtiyar Vahabzadədən, gah Nüsrət Kəsəmənlidən dediyi şeirləri dinləyirik. Onun güclü yaddaşına heyran qalırıq. Evin kiçik pəncərəsindən yaxınlıqdakı qonşunun mətbəxindən qaz şöləsi diqqətimizi cəlb edir. Buraya qaz xətti çəkilməsini də xüsusi qeyd etməliyik. Sərxan baba söhbətimizə qoşularaq bildirir ki, qazsız, işıqsız burada qışı yaşamaq çox çətin olardı. Əslində, Qapıcığın ətəklərində parlayan bu qaz şöləsi bütün Zəngəzur ərazisinə Naxçıvan Muxtar Respublikasının keçdiyi inkişaf yolundan danışır. Bu inkişafı tezliklə Zəngəzurun özündə də görəcəyik. O vaxt bu qazın şöləsi daha gur olacaq. Daimi yolyoldaşımız olan, insanı sabaha səsləyən və tezliklə həqiqətə çevriləcək bu ümidlə yuxuya gedirik. Gecəmizin bir duası var bu yerlər üçün: Qoy bu şölə heç zaman sönməsin!

...Bu yerlərdə həyat Günəş doğmamışdan başlanır. Yuxudan oyananda artıq Sərxan babanı ayaq üstə görürük. O, sübhdən oyanmış, heyvanlarını örüşə yola salmış, təsərrüfatında lazım olan işləri görmüş, arılarına növbəti qulluğu həyata keçirmiş, samovara od salmaqdan da qalmamışdı. Özünəməxsus gümrahlıqla işlərini davam etdirən bu insanla səhər yeməyinə oturmaq çox maraqlıdır. Səhərin erkən saatlarından bizim üçün arı pətəklərindən təzə bal da çıxarıb. Elə səhər yeməyinə



təzəcə oturmuşduq ki, əlindəki qabda şor-kərə olan qonşu Azər həyətə yaxınlaşır. Burada qonaq olduğumuzu bildiyinə görə öz təsərrüfatında hazırladıqları kənd məhsulundan səhər yeməyində istifadə etməyimiz üçün bizə gətirib. Sərxan babanın bir gün əvvəl səsləndirdiyi "insani münasibətlər hər şeydən öndə dayanır" fikrini bu məqamda yenidən xatırlayırıq. Bu qəsəbədə mehriban qonşuluq münasibətlərinin ən yaxşı nümunələrindən olan Azərin bizə pay gətirmək, qonağa hansısa yaxşı məhsulundan sovqat gətirmək ənənəsini bir daha görürük. Bu sarışın simalı gənc və utancaq adamı stola dəvət edirik. Çox keçmir ki, 28 yaşlı Azər Xıdırovun da xeyli müddətdir, daimi olaraq bu kiçik qəsəbədə məskunlaşdığını öyrənirik. Bu dağlar qoynundakı məkandan qürur və sevgi ilə danışan Azər 200 xırdabuynuzlu, 30-a yaxın iribuynuzlu heyvan saxladığını deyir. İstehsal etdikləri süd məhsullarının keyfiyyətinə və ləzzətinə isə söz ola bilməz. Bu dağların min bir rəngli, ətirli çiçəklərini yemiş, sərin sularından içmiş heyvanlardan sağılan süd və o süddən hazırlanan məhsulun dadını və keyfiyyətini elə səhər-səhər bizə gətirdiyi məhsulda da əyani şəkildə görmüş oluruq. Sərxan baba isə bu gənc oğlanı özünün "dağ yoldaşı" adlandırır. Zəhmətkeş və qoçaq insanlar harada yaşamasından asılı olmayaraq, hər zaman öz işləri, xarakterləri ilə seçilirlər. Çəkdikləri zəhmət isə heç zaman yerdə qalmır. Ana təbiət və doğma dağlar bu insanların ona tökdüyü hər damcı tərin qarşılığını artıqlaması ilə verməyə çalışır. Parağaçay qəsəbəsində məskən salan insanları bu torpağın əsgərləri adlandırsaq, lap yerinə düşər. Çünki onlar şəhər və rayon mərkəzlərindən kilometrlərlə uzaqda olan torpaqlarımızı əkib-becərməklə yanaşı, həm də qoruyurlar. Bu minvalla onlar da Vətənin keşiyini çəkirlər.

### *Vətən sevgisi...*

Vətən keşiyini çəkməkdən söz düşmüşkən, xüsusilə qeyd etməliyik ki, biz Qapıcığın ətəklərini də rahatlıqla gəzdik. Çünki bir az aralıda Vətənimizin keşiyini çəkən hərbçilərimiz bizi qoruyurdu. Qürur duyduğumuz Azərbaycan Ordusunun əsgərləri. Ermənistanı məğlub edən əsgərlərimiz. Onların bir yumruq kimi birləşdiyi şanlı zəfər və şərəf tarixi yazan Azərbaycan Ordusu!!! O ordu ki dostların qəlbinə sevgi axıdan atəşdir. Düşmənləri yandırıb-yaxan alovdur, oddur! Açıq etiraf edək ki, əvvəl sərhəd bölgələrinə gedəndə nisgilli idik, necə deyərlər, yarım idik. İndi Azərbaycan boyda bütövləşmişik. Bu dəfə Qapıcığın ətəklərini qürurla gəzməyin sevincini də yaşadıq. Zəngəzur silsiləsini böyük şövqlə izlədik. Səbirsizliklə gözlədiyimiz günlər isə qabaqdadır.

*Artıq bu torpaqlardan ayrılmaq vaxtı çatıb. Son gəldiyimiz qənaət: Parağaçay Qapıcığın çırağıdır. Səngərdə yanan çıraq. Vətənin hər qarışı müqəddəsdir, əzizdir. Doya bilmədik, onun bir qarış Parağaçayından. Dönüb bir daha bu yurd yerinə səsləndik: Odlar diyarımızın bir parçası olan ulu torpaq, sən bizim anamızsan, halımıza yananımızsan. Sən hikmətsən, sən qismətsən, sən qüdrətsən. Sən hünərsən, sən zəfərsən. Qızıldan da qiymətlisən, bərəkətli, nemətlisən. Şən, firavan həyatımız, qanadımız-qolumuzsan. Nur işıqlı yolumuzsan. Var olasan həmişə!!!*

**Sara ƏZİMOVA**
**Məmməd BABAYEV**

## Məktəblilərin əl işlərindən ibarət sərgi-satışa yekun vurulub

Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin təşkilatçılığı ilə Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində muxtar respublikadakı məktəbdənkənar təhsil müəssisələrinin dərnək üzvlərinin əl işlərindən ibarət sərgi-satışa yekun vurulub.



Qeyd edək ki, dərnək üzvlərinin əl işlərindən ibarət sərgi-satışa 1 iyundan start verilmişdi. İyunun 1-dən 5-dək davam edən sərgi-satışda 10-dək sənət növü – rəssamlıq, ebru sənəti, bədii tikmə, xalçaçılıq, toxuculuq, dulusçuluq, ağac üzərində oyma, ağac üzərində yandırma, metal üzərində bədii döymə və dekorativ işlər üzrə 1109 yaradıcılıq işi nümayiş etdirilib. Sərgi-satışda məktəbdənkənar təhsil müəssisələrinin dərnək üzvləri hazırladıqları müxtəlif əl işlərini nümayiş etdirməklə yanaşı, onları satmaq imkanı da əldə ediblər. Ümumilikdə, sərgi-satışda 348 şagirdin 647 əl işi satılıb ki, bunlardan da 530-u dekorativ, 117-si isə təsviri sənət işləri olmuşdur. Bununla yanaşı, satılan işlər içərisində sağlamlıq imkanları məhdud 8 uşağın 70-ə yaxın əl işi yer almışdır.

Yekun tədbirdə iştirak edən Naxçıvan Muxtar Respublikasının Təhsil naziri Rəhman Məmmədov bildirib ki, sərgi-satışın təşkili istedadlı və bacarıqlı şagirdlərin üzə çıxarılması, onların yaradıcılıq imkanlarına, fəaliyyətlərinin genişləndirilməsinə dəstək verilməsi, ən əsası milli dəyərlər əsasında tərbiyəsi və asudə vaxtlarının səmərəli təşkili məqsədini daşıyır. Satışdan əldə olunan vəsaitdən dərnək üzvlərinin stimullaşdırılması və dərnəklərin fəaliyyəti üçün lazım olan xammal və materialların alınmasında istifadə olunması nəzərdə tutulmuşdur.

Sonda sərgi-satışa çıxarılan yaradıcılıq nümunələri qiymətləndirilərək fəal iştirak edən müxtəlif dərnəklərin rəhbərləri, sərgidə hazırladıqları yaradıcılıq nümunələri ilə seçilən dərnək üzvləri və məktəbdənkənar təhsil müəssisələrində innovativ dərnəklərə cəlb olunan sağlamlıq imkanları məhdud uşaqlardan 4-ü Təhsil Nazirliyinin diplomları ilə təltif olunmuşdur.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

# Gənclərlə iş günün tələbləri səviyyəsində qurulur

*Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi tərəfindən may ayında da gənclərlə iş diqqətdə saxlanılıb, bir sıra tədbirlər həyata keçirilib.*



Ötən ay ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 98-ci ildönümü ilə əlaqədar Azərbaycan Könüllü Təşkilatları İttifaqının təşkilatçılığı ilə respublika könüllüləri arasında "Zoom" platforması üzərindən onlayn formatda "Nə? Harada? Nə zaman?" intellektual oyunu keçirilib. 45 regiondan könüllülərin qatıldığı turnirdə "Naxçıvan könüllüləri" komandası I yerin sahibi olub. Ulu öndərin doğum günü ilə əlaqədar gənclərin Heydər Əliyev Muzeyinə, "Naxçıvanı tanıyaq!" devizi altında isə "Əlincəqala" Tarix-Mədəniyyət Muzey Kompleksi və Gülüstan türbəsinə ekskursiyaları təşkil edilib.

May ayında "Nizami Gəncəvi ili" ilə əlaqədar ali və orta ixtisas təhsili müəssisələrinin teatr studiyaları arasında keçirilən "Nizami dünyası" adlı teatr müsabiqəsi çərçivəsində Naxçıvan Müəllimlər İnstitutunun teatr studiyası tərəfindən hazırlanmış "İlyas və Afaq" tamaşası nümayiş olunub. 3 ay davam edən müsabiqə mayın 26-da keçirilən mükafatlandırma mərasimi ilə başa çatıb.

Hesabat ayında gənclərin yeni bilik və bacarıqlar qazanmasına və şəxsi inkişafına kömək məqsədilə Ordubad rayonunda 30 gəncin iştirakı ilə "İş və şəxsi həyat balansı" mövzusunda motivasiya yönümlü təlim təşkil olunub, yeniyetmələr arasında "Xəmsə" milli intellektual oyununun muxtar respublika birinciliyi, ali və orta ixtisas təhsili müəssisələrində təhsil alan çağırışyaşlı tələbələrin ordu sıralarında hərbi xidmətə hazırlanmasına köməklik göstərmək məqsədilə onlar arasında "Vətən naminə" hərbi-idman oyunu və kursantlar arasında "Zəfərə gedən yol və 44 günlük müharibə!" devizi altında "Nə? Harada? Nə zaman?" intellektual oyunu keçirilib.

Ötən ay ölkə şahmatı tarixində ilk dəfə olaraq Naxçıvanda kişilər və qadınlar arasında şahmat üzrə Azərbaycan çempionatları keçirilib. Naxçıvan şəhərindəki "Gənclik" Mərkəzində reallaşan nüfuzlu yarışda milli komandanın üzvləri və reytinqli şahmatçılar, həmçinin Naxçıvan idmançıları – qrossmeyster Urfan Sevdimalıyev, şahmatçılar Nəsrin Babayeva və Nazlı Hümbətova da iştirakçı qismində mübarizə aparıblar.

Hesabat ayı ərzində bədən tərbiyəsi və idman sahəsində kütləviliyin artırılması, istedadlı idmançıların üzə çıxarılması, fiziki imkanları məhdud yeniyetmə və gənclərin reabilitasiyasının təmin olunması, o cümlədən tarixi gerçəkliklərin təbliği, turizm potensialının tanıdılması istiqamətində bir sıra tədbirlər – divara dırmanma, 18 yaşadək sağlamlıq imkanları məhdud uşaq və böyüklər arasında boccia, velosiped, ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri arasında peyntbol, stend atıcılığı, oğlan və qız atletlər arasında kross qaçışı üzrə Naxçıvan Muxtar Respublika birincilikləri keçirilib.

İctimai-siyasi və yaradıcı aləmdə fəaliyyəti olan dahi şəxsiyyətlərimizin daha yaxından tanıdılması, xalqımızın qədimdən bu günə miras buraxdığı milli-mənəvi dəyərlərə bağlılıq hissinin möhkəmləndirilməsi məqsədilə muxtar respublikada fəaliyyət göstərən idman federasiyaları üçün mütəmadi təşkil olunan ənənəvi ekskursiyalar davam etdirilib, qrafikə uyğun olaraq budəfəki gəzintidə Atletika, Voleybol, Basketbol və Futbol federasiyalarının təmsilçiləri müvafiq olaraq Duz Muzeyində, Yusif Küseyir oğlu türbəsində, Milli Dəyərlər Muzeyində və Qarabağlar Türbə Kompleksində olublar.

**Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti**

# Qarnizon xəbərləri

"Naxçıvan Qarnizonu Qoşunlarının 2021-ci tədris ilinə uzlaşma planı"na əsasən tabor, divizion komandirləri və müavinləri ilə təlim-metodik toplantı keçirilib.



Toplantıda əsas diqqət Naxçıvan Qarnizonunun birləşmə və hissələrinin bölmələrində döyüş və döyüş hazırlığı üzrə məşğələ və təlimlərin vahid metodika üzrə keçirilməsində zabitlərin metodik hazırlıqlarının yüksəldilməsinə yönəldilib.

Toplantı zamanı bölük və tabor taktiki qruplarının ərazidə fəaliyyəti, səfər, döyüşqabağı və döyüş düzülüşlərində hərəkəti, irəliləməsi və açılması mövzusunda müxtəlif variantlarda göstərici məşğələlər keçirilib.

Nümayiş, göstərici, taktiki-sıra və taktiki təlimlərdə komandirlərin və qərargahların bölmələri idarəetmə bacarıqlarının təkmilləşdirilməsi məqsədilə praktik fəaliyyətlərə daha çox diqqət ayrılıb.

Toplantının sonunda zabitlərin hərbi topoqrafiya, taktiki və fiziki hazırlıq üzrə bilik və bacarıq səviyyələri yoxlanılıb.

Toplantının yekununda qarşıya qoyulmuş məqsədlərə nail olunduğu vurğulanaraq hər bir zabitə fərdi tapşırıqlar və növbəti məşğələlərə hazırlıq üzrə göstərişlər verilib.

* * *

***Naxçıvan Qarnizonunda hərbi qulluqçular arasında atletika və gimnastika üzrə keçirilən birincilik başa çatıb.***



Hərbi qulluqçuların sürət, çeviklik və dözümlülüyünü yoxlamaq, güclü idmançı və komandaları müəyyən etmək məqsədilə keçirilən yarışda 16 komandada 280 idmançı mübarizə aparıb.

"Vətənə, xalqa və dövlətə xidmət ömrümüzün mənasıdır!" devizi altında təşkil olunan birincilikdə atlet və gimnastlar turnikdə dartınma və aşaraq dayağa qalxma, paralel qollarda dayaq vəziyyətində qolların bükülüb-açılması, uzunluğa və hündürlüyə tullanma, 100 və 3000 metr məsafəyə qaçış, 400 metr məsafəyə estafet qaçışı yarışlarında özlərini sınayıblar.

Ümumi nəticələrə əsasən komanda hesabında 1-ci yerdə xüsusi təyinatlılar, 2-ci və 3-cü yerlərdə isə motoatıcılar qərarlaşıb.

Birinciliyin nəticələrinə əsasən ilk üçlükdə qərarlaşan komanda və hərbi qulluqçulara Əlahiddə Ümumqoşun Ordu Komandanlığı tərəfindən fəxri fərman, diplom və kuboklar təqdim edilib.

**Kənan CƏLİLOV**

# Ekoloji tədbirlər sağlamlığa xidmət edir

*Muxtar respublikada ekoloji tarazlığın qorunması, əlverişli ekoloji mühitin yaradılması, insanların sağlam ətraf mühitdə yaşamasının təmin edilməsi məqsədilə uğurlu sosial-ekoloji siyasət həyata keçirilir.*

May ayında ətraf mühitin mühafizəsi, qanunsuz ov, meşə fondu torpaqlarından istifadə, ətraf mühitə atılan tullantıların normadan artıq olması hallarına qarşı mübarizə aparılması məqsədilə 11 yoxlama-reyd keçirilmiş, 2 inzibati xəta qeydə alınmış və qanunauyğun tədbir görülmüşdür. Muxtar respublikamızın təbiətinin qorunması üçün inzibati tədbirlərlə yanaşı, əhali arasında ekoloji-hüquqi maarifləndirmə tədbirləri də icra edilmişdir. Bu məqsədlə Şərur rayonunun Mahmudkəndində ətraf kəndlərin də nümayəndələrinin iştirakı ilə ekoloji-hüquqi maarifləndirmə tədbiri keçirilmişdir.

Ay ərzində ekoloji monitorinqlər də davam etdirilmişdir. Bu məqsədlə Naxçıvan şəhər, Ordubad, Şərur, Babək, Kəngərli və Culfa rayonlarının 23-dən çox yaşayış məntəqəsində monitorinqlər aparılmış, su mühiti, məişət, tibbi və bərk tullantıların idarə olunması və yaşıllıqların mövcud vəziyyəti öyrənilmişdir. Monitorinqlər zamanı aşkar edilən müəyyən çatışmazlıqların aradan qaldırılması üçün tapşırıqlar verilmişdir.

Sədərək Rayon Su Monitorinq Laboratoriyasında may ayı ərzində Araz çayının muxtar respublika ərazisinə daxil olan hissəsindən və Sədərək rayonu ərazisindən keçən "Şir arxı"ndan hər birindən 8, Arpaçayın muxtar respublika ərazisinə daxil olan hissəsindən isə 4 olmaqla, ümumilikdə, 20 su nümunəsi götürülmüş və 194 analiz aparılmışdır.

Muxtar respublika ərazisində ekoloji tarazlığın qorunması sahəsində mühüm amil olan yaşıllıqların, meşələrin qorunması və artırılması da diqqətdə saxlanılmışdır. Belə ki, ay ərzində 55 hektar sahə kultivasiya olunmuş, 24,3 hektar sahədə toxumla əkin keçirilmiş, 1,8 hektar sahə alaq otundan təmizlənmiş, 7,1 hektar sahədə suvarma aparılmışdır.

Gənclərlə işin təşkili məqsədilə ekologiya könüllülərinin və bir qrup gəncin Beynəlxalq Biomüxtəliflik Günü ilə əlaqədar olaraq Akademik Həsən Əliyev adına Ordubad Milli Parkına ekskursiyası təşkil edilmiş, onlara milli park ərazisində mövcud olan biomüxtəliflik haqqında geniş məlumat verilmişdir. Gənclər milli parkın Culfa rayonunun Boyəhməd kəndi ərazisindəki informasiya mərkəzi ilə də tanış olmuşlar. Həmçinin onların ətraf ərazilərə gəzintisi təşkil edilmiş, gəzinti zamanı sualları cavablandırılmışdır.

**Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidməti**

## Naxçıvan Muxtar Respublikası üzrə 2021-ci ilin may ayında verilən elektrik enerjisinin miqdarı, satışdan daxil olan vəsait və ödənilmə faizi haqqında məlumat

| S/№ | Şəhər və rayonlar | Enerjinin miqdarı (min kvt/saat) | Enerjinin dəyəri (min manat) | Toplanan vəsait (min manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Naxçıvan şəhəri | 3498 | 258,9 | 258,9 | 100,0 |
| 2. | Şərur rayonu | 1656 | 116,8 | 116,8 | 100,0 |
| 3. | Babək rayonu | 1683 | 120,3 | 120,3 | 100,0 |
| 4. | Ordubad rayonu | 1089 | 77,0 | 77,0 | 100,0 |
| 5. | Culfa rayonu | 762 | 54,5 | 54,5 | 100,0 |
| 6. | Kəngərli rayonu | 785 | 56,7 | 56,7 | 100,0 |
| 7. | Şahbuz rayonu | 408 | 28,9 | 28,9 | 100,0 |
| 8. | Sədərək rayonu | 152 | 11,0 | 11,0 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 31678 | 2851,0 | 2858,2 | 100,3 |
| | **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | **41711** | **3575,1** | **3582,3** | **100,2** |

**Qeyd:** May ayında texniki itki nəzərə alınmaqla verilən 41 milyon 711 min kilovat/saat elektrik enerjisinin dəyəri 3 milyon 575 min 100 manat olmuş, cəmi 3 milyon 582 min 300 manat vəsait toplanmışdır ki, bu da istifadə olunan enerjinin dəyərinin 100,2 faizini təşkil edir.

# Bədii gimnastika kursunu bitirənlərə sertifikatlar təqdim olunub

***Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində təşkil edilən bədii gimnastika kursunu bitirən müəllimlərə sertifikatlar təqdim edilib. Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi və Atletika Federasiyasının təşkilatçılığı ilə keçirilən kurs bir ay davam edib.***

Naxçıvan Muxtar Respublikası Atletika Federasiyasının sədri Rəhman Məmmədov tədbirdə çıxış edərək bildirib ki, muxtar respublikada bədii gimnastikanın inkişafı, bu idman növü üzrə idmançıların hazırlanması daim diqqət mərkəzindədir. Federasiyanın tabeliyində fəaliyyət göstərən "Xatun" Bədii Gimnastika İdman Klubunda 100, Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində 35, Ordubad Rayon Uşaq-Gənclər İdman Məktəbində 20, Naxçıvan Dövlət Texniki Kollecində 15, Naxçıvan Qızlar Liseyində 10 olmaqla, ümumilikdə, 180 qız hazırda gimnastika ilə məşğul olur.



Rəhman Məmmədov bədii gimnastika üzrə məşqçi-müəllim hazırlığı məqsədilə təşkil edilən kursun əhəmiyyətindən də danışıb. Bildirilib ki, bu idman növü üzrə məşqçi-müəllimlərin hazırlanması həm ümumtəhsil məktəblərində, həm də ali və orta ixtisas təhsili müəssisələrində bədii gimnastika idman klubları yaradılacaq, şagirdlər və tələbələr bədii gimnastika ilə məşğul olmaq imkanı əldə edəcəklər.

Tədbirdə kursu müvəffəqiyyətlə bitirən ümumtəhsil məktəblərinin müəllimləri, ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri olmaqla, ümumilikdə, 15 müəllim və tələbəyə sertifikat, kursu yüksək səviyyədə təşkil etdiyinə görə "Xatun" Bədii Gimnastika İdman Klubunun rəhbəri Humay Qafarovaya federasiyanın təşəkkürnaməsi təqdim olunub.

Sonra Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin Bədii gimnastika dərnəyi üzvlərinin nümunəvi çıxışları izlənilib.

Sonda federasiya sədri yeni sertifikat alan müəllim və tələbələrin fikirlərini dinləyib, xatirə şəkli çəkdirilib.

# İdmançımız ölkə çempionatının qalibidir

***Bakı şəhərində atletika üzrə Azərbaycan çempionatı keçirilib. Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının stadionunda təşkil edilən yarış iki gün davam edib və 90 idmançı qələbə uğrunda mübarizə aparıb.***



Ölkə birinciliyində Naxçıvan Muxtar Respublikası Atletika Federasiyasının yetirməsi Əmrah Nağıyev də iştirak edib. İdmançımız ona bəslənilən ümidləri doğruldaraq mükafatçılar sırasına düşüb. Belə ki, o, 3000 metr məsafəyə qaçışda bütün rəqiblərini geridə qoyaraq finiş xəttinə birinci çatıb. Qeyd olunan məsafəni 9 dəqiqə 32.92 saniyə ərzində qət edən təmsilçimiz bu göstərici ilə Azərbaycan çempionu adına layiq görülüb.

Sonda idmançımız təşkilatçılar tərəfindən diplom və medalla təltif olunub.

**✍ Ceyhun MƏMMƏDOV**

### *İtmişdir*

Naxçıvan şəhəri, M.Ə.Sabir küçəsi, döngə 48, ev 3A-da yaşayan Hüseynova Qızxanım Həsən qızının adına olan evin 3762 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Şadlinski küçəsi, bina 2, mənzil 13-də qeydiyyatda olan Yalçınkaya Çiçək Əşrəf qızının adına olan MH-0023179 nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

***

Sevda və Cem Kaymakın adına verilmiş nikah şəhadətnaməsi itdiyindən etibarsız sayılır.

***

Əliyev Sübhan Qadir oğlunun adına olan avtomobilin texniki pasportu itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ceyhun Məmmədov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 456